

*Ramiz RÖVŞƏN*

# Üç yarpaqdan biri

*Vaqif Səmədoğlunun xatirəsinə*

***1985-ci ildə rejissor dostumuz Ramiz Həsənoğlunun o vaxt nisbətən cavan olan üç Azərbaycan şairi haqqında (Vaqif Səmədoğlu, Vaqif Bayatlı, Ramiz Rövşən) çəkdiyi televiziya filminin adı "Üç çinar yarpağı" idi. Vaqif Səmədoğlunun ölümü ilə bu üç yarpaqdan biri qopdu.***

Rəsul Rzanın hələ 60-cı illərdə çap olunan bir şerində belə misra vardı: "Sevirəm balaca Vaqifi".

"Balaca Vaqif" o vaxt ilk şeirlərini çap etdirən gənc şair Vaqif Səmədoğluydu. Qırx gün əvvəl haqq dünyasına qovuşan Vaqif Səmədoğlu böyük adaşı Molla Pənah Vaqifdən bir qədər az, Rəsul Rzadan bir qədər çox yaşadı. Və indi Molla Pənah Vaqiflə, Rəsul Rzayla, atası Səməd Vurğunla, eləcə də minillik poeziyamızın başqa böyük şairlərilə bir sırada öz yerini tutdu.

Biz Vaqiflə qırx beş il bundan əvvəl, mənim ilk şeir kitabım çap ediləndən sonra tanış olmuşuq. Yadımdadı, Vaqif məni görən kimi əlini əlinə vurub zarafatla: - Ay can, ay can! - dedi, - İndi məndən əl çəkib səndən yapışacaqlar.

Vaqif bunu deyəndə o vaxtkı tənqidçiləri nəzərdə tuturdu. Doğrudu, məndən yapışmağına yapışdılar, amma Vaqifdən də əl çəkmədilər.

Ancaq bizi milli köklərdən qopmaqda, Qərb poeziyasının "zərərli təsiri"nə uymaqda günahlandıranların dediyinin tam əksinə olaraq, Vaqifin bir çox şeirləri, nəğmələri dillər əzbəri oldu və bu gün də dillər əzbəridi.

70, 80-ci illərdə kiməsə "Sevdiyin şair kimdir?" sualını verib, "Vaqif Səmədoğlu" cavabını alsaydılar, bu cavab həmin adamın yüksək intellektinin və ədəbi zövqünün göstəricisi sayılardı. Vaqif Səmədoğlu bir şair kimi bu keyfiyyətini və statusunu ömrünün sonuna qədər saxladı.

Vaqifi həmişə ölümdən çox yazmaqda günahlandırıblar. Onun şeirlərində ölümə məhrəm bir münasibət var. Eyni zamanda, hərdən ölümə qarşı bir ironiya, ölümlə zarafatlaşmaq meyli də duyulur. Amma ölümlə şeirdə zarafatlaşmaq ayrıdı, həyatda zarafatlaşmaq ayrı.

Təəssüf ki, bir az gec, əlli yaşından sonra da olsa, Vaqifin həyatındakı ən böyük boşluğu ailə rahatlığı, sevgi və qayğıyla dolduran ömürgün yoldaşı Nüşabə xanımın dediyi kimi, Vaqifin son nəfəsində ona zarafatla göz vurması nələr demir?!

Vaqif Səmədoğlu öz şeirlərini həyatı və ölümü ilə təsdiqləyən şairdi. Sizi inandırıram ki, belə şairlər dünyada çox azdı...